QANUN № 08 (382), 2026, s.180-184

Qubadov Asif Səmidəli oğlu,
Hüquqşünas, "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında bərpa, tikinti və idarəetmə xidməti" Publik Hüquqi Şəxs
E-mail: asif.qubadov2025@gmail
Ünvan: Xankəndi şəhəri

UOT 343.1
DOI: https://doi.org/10.30546/2218-9130.008.382.2026.1182

AXTARIŞ İSTİNTAQ HƏRƏKƏTİNİN BƏZİ PSİXOLOJİ MƏSƏLƏLƏRİ

Açar sözlər: *axtarış, istintaq hərəkəti, müstəntiq, psixoloji aspekt, taktika, CPM, münaqişəli şərait, müşahidə, sözlə kəşfiyyat.*

Ключевые слова: *обыск, следственное действие, следователь, психологический аспект, тактика, УПК, конфликтная ситуация, наблюдение, словесная разведка.*

Keywords: *search, investigative action, investigator, psychological aspect, tactics, CPC, conflict situation, observation, verbal reconnaissance.*

Giriş

Psixoloji aspektdə axtarış **kifayət qədər** *mürəkkəb və spesifik* istintaq hərəkəti hesab olunur. Bu, ilk növbədə, axtarışın **barəsində axtarış aparılan şəxsə münasibətdə** *məcburi xarakter daşıması* ilə əlaqədardır. İkincisi, axtarış üçün istintaq hərəkətləri iştirakçılarının **mənafelərinin ziddiyyət təşkil etməsi** *səciyyəvidir*. Müstəntiq və təhqiqat orqanı işçisi cinayət alətlərinin, cinayət yolu ilə əldə edilmiş predmet və qiymətlilərin aşkar edilməsində maraqlı olduğu halda, barəsində axtarış aparılan şəxs əksər hallarda bunda maraqlı deyildir. İstənilən halda, o cümlədən axtarışın məhkəmə qərarı əsasında aparıldığı hallarda şübhəli, təqsirləndirilən şəxs və ya onun ailə üzvləri üçün arzuedilməz müdaxilə baş verir, bu hərəkət yaşayış yerinin toxunulmazlığı, şəxsi həyat sirləri hüququnun pozulmasına səbəb olur.

Tədqiqatın aktuallığı. Axtarış müstəntiqdən ciddi diqqət tələb edir. Psixologiyada diqqət anlayışı altında şüurun şəxsi əhəmiyyət kəsb edən müəyyən obyektlərə istiqamətlənməsi başa düşülür. Diqqət insanın yüksək hissi, zehni və hərəki fəallığı ilə müşayiət olunur. Prof. C.Mövsümov haqlı olaraq qeyd etmişdir ki, axtarış prosesində çoxlu miqdarda obyektlər arasından hansıların işə aid olub-olmamasını müəyyən etmək müstəntiqin vəzifəsidir [4, s. 93].

Axtarışın effektivliyini yüksəldən əsas cəhətlərdən biri də müstəntiqin **yüksək müşahidə qabiliyyətinə** *malik olmasıdır*. Müşahidə mühitdə mövcud olan şəraitə, predmetlərə və şübhəli şəxslərin davranışlarına *yönəlməlidir*. Müstəntiq şəxsə axtarış aparılan sahə və ya predmetlərin təyinatı barədə suallar verir və bu zaman şəxsin psixoloji durumunu və psixofizioloji reaksiyalarını izləyir. Kriminallistika ədəbiyyatında bu üsul «sözlə kəşfiyyat» *adlandırılır*. Bu üsulla müstəntiq şəxsin emosional durumundakı destabililliyi daha da gücləndirir, onun öz davranışları üzərində nəzarətinin, təmkininin zəifləməsinə nail olur. Lakin göstərilən üsuldan istifadə edərkən ifratçılığa varmaq və bununla da, münaqişəli vəziyyət yaratmaq yolverilməzdir.

Digər tərəfdən, şübhəli və ya təqsirləndirilən şəxsə məxsus yaşayış yerində və ya digər

obyektlərdə axtarış aparılması adətən qonşulara, tanışlara, iş yoldaşlarına və s.-ə məlum olur ki, bu da şəxsin əslində təqsirli olub-olmamasından asılı olmayaraq, onun və yaxınlarının barəsində mənfi münasibətin yaranmasına, nüfuzunun ləkələnməsinə səbəb olur. Bütün bunlar axtarış istintaq hərəkəti üçün müəyyən münaqişəli şəraitin səciyyəvi olduğuna dəlalət edir.

İstintaqı maraqlandırılan predmetlər əksər hallarda barəsində axtarış aparılan şəxs tərəfindən gizlədilir, bu hal baxılan istintaq hərəkəti üçün axtarıcılıq işinin səciyyəvi olması deməkdir.

Müstəntiq əksər hallarda axtarış aparılacaq şərait, axtarılacaq predmetlər və onların yeri barədə məhdud informasiyaya malik olur. Bu, axtarışın problemli xarakterini müəyyən edir. Axtarış aparılması müstəntiqdən müxtəlif psixoloji keyfiyyətlər, peşə bilik və vərdişləri tələb edir. Onu da qeyd edək ki, axtarışa münasibətdə tələb olunan psixoloji keyfiyyətlərin konkret dəstini müəyyən etmək mümkün deyildir. Çünki konkret şəraitdən və barəsində axtarış aparılan şəxsin fərdi xüsusiyyətlərindən asılı olaraq müəyyən psixoloji keyfiyyətlər bir şəxs barəsində müsbət, digəri barəsində mənfi nəticələrə səbəb ola bilər.

Əgər axtarış başlayan anda axtarılan əşya və dəyərlilərin yeri dəqiq, hətta təqribi də olsa məlum deyildirsə, onların gizlədildiyi yerlərin müəyyən edilməsi axtarışın ən çətin vəzifəsi olacaqdır. Buna görə də, belə hallarda müstəntiqin fəaliyyətinin idraki tərəfi həlledici əhəmiyyətə malik olur.

Məsələn, axtarış zamanı müstəntiq öz qarşısına həlledilməz vəzifə qoya bilməz – axtarış aparılan ərazinin hər kvadrat santimetrini eyni dəqiqliklə, eyni qüvvə bölgüsü ilə axtarmaq. Axtarışa başlamazdan öncə müstəntiq öz fərziyyəsini qurmalıdır: axtarılan əşyaların və barəsində axtarış aparılan şəxsin xarakterisitikasından asılı olaraq predmetin gizlədildiyi yerlər barədə ehtimallar; barəsində axtarış aparılacaq şəxslərin dairəsi; axtarışın başlama anının, iştirakçılarının və icraat prosedurunun müəyyənləşdirilməsi.

Axtarış prosesində müstəntiqin bu cür idrak fəaliyyəti axtarış fərziyyələrinin irəli sürülməsi yolu ilə realizə olunur. Bura həmçinin, gizlətmə psixologiyasının tədqiqi, gizlədənin fərdi qabiliyyətlərinin, mümkün maskalama üsullarının təhlili və s. aiddir.

Axtarışın uğurla aparılması müstəntiqin şəxsi təşkilatçılıq qabiliyyətlərindən xeyli dərəcədə asılıdır. Təşkilati baxımdan axtarış çoxepizodlu istintaq hərəkəti olub, hazırlıq, iştirakçıların seçimi, onların uzlaşmış fəaliyyətinin təşkili, planlaşdırma kimi işçi mərhələləri özündə ehtiva edir. Aydındır ki, bütün bu işlər və onların nəticələrinə görə məsuliyyət müstəntiqin üzərinə düşür.

Axtarışın uzun sürənliyi, monotonluğu, yekcinsliyi, diqqət yayındırıcı obyektlərin çoxluğu tədrici yorğunluğa, qüvvənin tükənməsinə və nəhayət diqqət dağınıqlığına gətirib çıxarır. Bu səbəbdən, uzun sürən axtarış zamanı iş effektivliyini qoruyub saxalamağa yönəlmiş aşağıdakı kriminalistik tövsiyələr rəhbər tutulmalıdır:

- uzun sürən axtarış gedişində müəyyən vaxtlarda qısamüddətli istirahətə vaxt ayırmalı;

- axtarış zamanı əvvəlcədən razılaşdırılmış qaydanı saxlamalı, yayındırıcı söhbətlərə, izafi hərəkətlərə yol verməməli;

- eynicinsli, çoxsaylı təkrarlanan hərəkətlər zamanı axtarış iştirakçıları axtarış işinin icra variantlarını dəyişməlidirlər.

Axtarılan predmetlərin gizlədildiyi yerləri və ya gizlədilmə üsullarını aşkar etmək üçün obyektiv və subyektiv amillər məcmu halda nəzərə alınmalıdır. Obyektiv amillər axtarış yerində mövcud olan şərait və axtarılan predmetlərin xarakteri ilə müəyyən olunur. Məsələn, bağ sahəsində predmet yalnız torpağın altında və ya ağacların gövdəsində gizlədilə bilər. Aydındır ki, axtarılan iri predmetlər ağacların gövdəsində gizlədilə bilməz, onları yalnız torpağın altında gizlətmək mümkündür. Subyektiv amillər isə gizlədən şəxsin şəxsi keyfiyyətlərinə (peşə, yaş, cins, xüsusi bacarıqlar) nəzərən müəyyənləşir.

Məlum olduğu kimi, şəxsi axtarış, mənzildə axtarış zamanı maraqlı şəxsin hüquq və mənafeləri əhəmiyyətli dərəcədə məhdudlaşmış olur. Əgər axtarış zamanı cinayət alətləri, cinayətkar yolla əldə olunmuş predmetlər və qiymətlilər aşkar edilərsə, bu, şübhəli və ya təqsirləndirilən şəxsin həbs olunmasına, cinayət-hüquqi cəzalandırılmasına səbəb ola, onun ailəsi əmlak müsadirəsinin nəticələrini yaşaya, şəxs və onun ailəsi barəsində ictimaiyyətin mənfi rəyi yarana bilər. Aydındır ki, belə hallarda uğurla aparılan axtarış şəxsdə və onun ailə üzvlərində, yaxınlarında ciddi təşviş doğura və onları hüquqazidd addımlar atmağa vadar edə bilər. Başqa sözlə, axtarış bir çox hallarda gərgin psixoloji şəraitdə keçir, maraqlı şəxslər və axtarış aparan şəxslər arasında mənfi münasibətlə, gərginliklə müşayiət olunur. Qeyd olunanları təsdiqləmək üçün aşağıdakı fakta nəzər salmaq kifayətdir:

Əməliyyat işçiləri C. və D. məhkəmə qərarı olmadan mənzilə daxil olmuş, mənzildə narkotik vasitə gizlədildiyini bildirərək axtarışa başlamış, mənzildə olan əşyaları töküb dağıtmış, mənzil sahibi F. (həmin vaxt mənzildə onun həyat yoldaşı və iki uşağı olmuşdur) onda heç bir narkotik vasitə olmadığını bildirmiş və əşyalarla səliqəli davranmasını xahiş etmiş, buna məhəl qoymayan əməliyyat işçiləri eyni qaydada davam etmiş və mənzil sahibi C.-ni ütü ilə başından vuraraq qətlə yetirmişdir. İstintaq zamanı F.-nin narkotik vasitələrin alqı-satqısı və ya istehlakı ilə heç bir bağlılığının olmadığı, əməliyyatçılara yanlış hədəf verildiyi müəyyən edilmişdir. F. qəsdən adam öldürməyə görə məhkum edilmişdi.

Qeyd olunan misalda əməliyyat işçiləri barəsində axtarış aparılan şəxsin emosional vəziyyətinə diqqət yetirməmiş, əksinə, öz hərəkətləri ilə onun psixoloji gərginliyini daha da artırmışdılar ki, bu da faciəli nəticəyə səbəb olmuşdu.

Müstəntiq və axtarışın digər iştirakçıları da axtarış zamanı məxsusi gərginlik yaşayırlar. Axtarış aparan şəxslər adətən vəzifə borcu, məsuliyyət hissi, cinayətkarlara qarşı qəzəb hissi, yaradılmış süni maneələri dəf etmə qətiyyəti, yad adamın mənzilində olma ilə bağlı keçirilən hislər, narahat edilmiş ailə üzvlərinə təəssübkeşlik və s. kimi hislərin kompleksi altında hərəkət edirlər. Bütün belə hallarda müstəntiqdən və axtarış aparan şəxslərdən səbrli olmaq, maraqlı şəxslə və onun ailə üzvləri ilə maksimum diqqətlə davranmaq tələb olunur. Münaqişəli şəraitlərdə axtarış aparan şəxslər xüsusilə diqqətli olmalı, təhrikə uymamalı, barəsində axtarış aparılan şəxslə hər cür toqquşmadan uzaq olmağa səy göstərməlidirlər.

Nəzərə almaq lazımdır ki, axtarış aparan şəxsin məqsədə yaxın olduğunu gördükdə maraqlı şəxslər münaqişə yaratmağa, axatrış aparan şəxsə müxtəlif qanunsuz və amoral təsirlər göstərməklə onu hədəfdən yayındırmağa çalışa bilərlər. Axtarışın əsas psixologi məsələlərindən bəhs edərək K.Q.Sarıcalinskaya qeyd etmişdir, axtarış aparan şəxs heç bir xarici qıcılandırıcılara fikir verməməli, diqqətini yalnız axtarılan predmetlərə cəmləməlidir [3, s. 419].

Axtarışın nəticəviliyi müstəntiqdən **ciddi iradə və inadkarlıq** *tələb edir*. İnadkarlıq o deməkdir ki, müstəntiq axtarışın uzun müddət nəticəsiz davam etməsindən yorulmamalı, qarşıya çıxan bütün çətinlikləri **ardıcıllıqla dəf etməlidir**. Uzunsürənlik, yüksək əmək tutumluluğu, axtarış işinin yeknəsəkliyi, münaqişəli şəraitin mövcudluğu müstəntiqdə inamın itməsinə səbəb ola bilər. Belə hallarda, əgər müstəntiq axtarılan predmetlərin axtarış sahəsində olmasına qəti əminliyi mövcuddursa, o, son həddə inadkarlıq göstərərək axtarışı davam etdirməlidir.

Axtarış zamanı müstəntiqdən və axtarış aparan digər şəxslərdən yüksək sayıqlıq tələb olunur. Onlar barəsində axtarış aparılan şəxsləri fasiləsiz və ciddi diqqət altında saxlamalıdırlar. K.Q.Sarıcalinskayanın axtarışın psixoloji cəhəti ilə bağlı tövsiyələrində göstərilir ki, «axtarılan şəxs axtarış zamanı həyəcan keçirir, onun

reaksiyası tez-tez dəyişir. Məhz buna görə də müstəntiq onun davranışını diqqətlə izləməli, üzünün mimikasına fikir verməlidir. Bəzən axtarılan şəxs süni reaksiyalar nümayiş etdirir ki, axtaran şəxsin nəzərini lazımi predmet və ya sahədən yayındırsın və bununla da axtarışın gedişini çətinləşdirsin və s. Bəzi hallarda isə konkret sahədə axtarış aparılmasının faydasız olduğunu müstəntiqə inandırmağa çalışır. Lakin müstəntiq belə hallara fikir verməməli, axtarışı səbrlə, diqqətlə davam etdirməlidir» [2, s.108].

Əlavə olaraq onu qeyd edək ki, axtarış aparan şəxsin sayıqlığı bir sıra neqativ halların qarşısını almağın yeganə yoludur. Məsələn, dərs vəsaitlərinin birində bu hala aşağıdakı misalla nümunə gətirilir:

Mənzildə axtarış zamanı müstəntiq və digər milis işçiləri təqsirləndirilən şəxsin ailə üzvlərinin davranışına diqqət yetirməmiş, onları nəzarətsiz buraxmışdılar. Bundan istifadə edərək təqsirləndirilən şəxsin arvadı iri pul məbləğini müstəntiqin koridorda asılqandan asılmış paltosunun cibinə qoymuşdu. Axtarış başa çatdıqdan sonra müstəntiq iştirakçıların hansısa birinin şikayət və ya qeydinin olub-olmamasını soruşduqda, təqsirləndirilən şəxsin arvadı bildirmişdi ki, müstəntiq aşkar etdiyi pulları gizlincə, yəni mənimsəmək məqsədilə öz paltosunun cibinə qoymuşdur. Pulun məbləğini və hansı əskinaslardan ibarət olduğunu dəqiqliklə bildirərək tələb etmişdi ki, pullar hal şahidlərinin iştirakı ilə müstəntiqin cibindən götürülsün [5, s.89].

Belə halların konkret müstəntiq və ümumilikdə istintaq orqanlarının nüfuzuna necə zərbə olduğunu açıqlamağa ehtiyac yoxdur. Buna görə, hesab edirik ki, axtarış aparan şəxslər axtarılan şəxslər tərəfindən bütün mümkün böhtan, qarayaxma və s. bu kimi hallara məruz qalmamaq üçün, bütün axtarış müddətində qısa müddətə də olsa axtarılan şəxsləri diqqətdən yayındırmamalıdırlar.

Azərbaycan Respublikası CPM-in 245.5-ci maddəsinə əsasən müstəntiq axtarış və ya götürmə qurtaranadək həmin yerdə olan şəxslərə oranı tərk etməyi, habelə öz aralarında və digər şəxslərlə ünsiyyətdə olmalarını qadağan edə bilər [1].

Prof. C.Mövsümov axtarışın kim barəsində aparılmalı olmasına ciddi diqqət yetirməyi tövsiyə etmişdir. Onun fikrincə, iş üçün əhəmiyyəti ola bilən əşyaların və qiymətli şeylərin kimlər tərəfindən gizlədilməsi ehtimal olunan bütün şəxslərin dairəsi müəyyən edilməlidir [4, s.96]. Başqa sözlə, subyektiv amillərdən tam yararlanmaq üçün müstəntiq predmetin kimlər tərəfindən gizlədilməsinin mümkün olduğun araşdırmalıdır. Nəzərə alınmalıdır ki, cinayətin predmetləri təkcə şəxsin özünə aid olan mənzildə və ya başqa yerlərdə deyil, həmçinin qonşularının, qohum və dostlarının, digər yaxınlarının və etibar etdiyi adamların mənzilində və ya digər mülklərində gizlədilə bilər. Buna görə də, axtarışa başlamazdan əvvəl şübhəli və ya təqsirləndirilən şəxsin bütün qohumluq və yaxınlıq əlaqələri ciddi surətdə öyrənilməlidir.

Nəticə

Axtarış zamanı müstəntiqə səbr, təmkinlilik, emosional müvazinətlilik kimi peşəkar keyfiyyətlər zəruridir. Axtarışın uğurluluğu yalnız, axtarılan əşyaları aşkar etməkdən ibarət deyildir. Axtarış həmçinin o halda uğurlu hesab oluna bilər ki, axtarılan predmetlərin axtarış aparılan yerdə olmadığını tam qətiyyətlə təsdiq etmə mümkün olsun. Yalnız bundan sonra həmin predmetlərin digər, başqa yerlərdə olması barədə fərziyyə qurmaq və yeni axtarış hərəkətlərinə başlamaq özünü doğrulda bilər.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikasinin Cinayət-Prosessual Məcəlləsi. https://e-qanun.az/framework/46950
2. İstintaq taktikası. K.Q.Sarıcalinskayanın redaktəsi ilə. Bakı: «Maarif», 1991.
3. Kriminalistika: Ali məktəblər üçün dərslik. K.Q.Sarıcalinskayanın redaktəsi ilə. Bakı: «Hüquq ədəbiyyatı», 1999.
4. Mövsümov C.H. İbtidai istintaq. Bakı: «Maarif», 1973.
5. Следственные действия (процессуальные особенности, тактические и психологические характеристики). Волгоград, ВСШ МВД СССР, 1984 г.

Губадов Асиф Самидали оглу,
Vəkil

НЕКОТОРЫЕ ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ПОИСКОВО-СЛЕДСТВЕННОГО ДЕЙСТВИЯ

РЕЗЮМЕ

В статье анализируются психологические особенности обыска как следственного действия, профессиональные качества следователя и способы разрешения конфликтных ситуаций, возникающих при обыске. Автор исследует принудительный характер обыска и конфликт интересов сторон в психологическом аспекте. В исследовании подчеркивается важность наблюдательности следователя, его воли и таких тактических приемов, как «словесная разведка». Также на практических примерах объясняется роль объективных и субъективных факторов при обыске.

Qubadov Asif Samidali,
Lawyer

SOME PSYCHOLOGICAL ISSUES OF SEARCH AND INVESTIGATIVE ACTIONS

SUMMARY

The article analyzes the psychological characteristics of search as an investigative action, the professional qualities of the investigator, and ways to resolve conflict situations arising during the search. The author examines the compulsory nature of the search and the conflict of interests between the parties in a psychological aspect. The study emphasizes the importance of the investigator's observation skills, will, and tactical methods such as "verbal reconnaissance". The role of objective and subjective factors during the search is also explained with practical examples.

Redaksiyaya daxilolma tarixi: 01.08.2026
Təkrar işlənməyə göndərilmə tarixi: 10.08. 2026
Çapa qəbul olunma tarixi: 23.08.2026